

# XƏZƏR rayonu: Sosial-iqtisadi məsələlər uğurla həll olunur

**Bu gün Azərbaycan öz müstəqilliyi, suveren dövlətçiliyi ilə dünya birliyi tərəfindən tanınmış bir ölkədir. 2003-cü ilin sonundan başlayaraq dövlət öz inkişaf proqramı, milli-mənəvi ideyası, varlığını qoruyub saxlamaq, xalqın güzəranını yaxşılaşdırmaq məqsədi ilə uğurlu addımlar atır. O, iqtisadi cəhətdən gücləndikcə, dünya dövlətləri arasında iqtisadi-siyasi, mədəni əlaqələrini gündən-günə dərinləşdirir. Bu baxımdan 2017-ci ilin 9 ayı ərzində respublikada görülən işlərin uğurlu yekununu Nazirlər Kabinetinin iclasındakı nitqində dövlət başçısı cənab İlham Əliyev bir daha təsdiqləmişdir.**



Dövlət başçısı onu da diqqətə çatdırmışdır ki, 2017-ci ildə həm bizim bölgəmizdə, həm də dünyada təhlükəli və narahatlıq yaradan meyillər kifayət qədər çoxalıb. Müharibələr, münaqişələr, qanlı toqquşmalar, böhranlar bugünkü həyatın təzahürüdür. Bütün bunlara baxmayaraq ölkəmizdə sosial-iqtisadi inkişaf davam edir, sabitlik qorunub saxlanılır. Nəticədə biznes mühiti yaxşılaşdırılmış, ixrac potensialı artırılmış, bu istiqamətlər üzrə çox ciddi qərarlar qəbul edilmişdir. İlin 9 ayı ərzində qeyri-neft sektoru 2,5 faiz, kənd təsərrüfatı 2,8 faiz, xarici ticarət dövriyyəsi 7 faiz artmış, ixrac idxaldan 4,4 milyard dollardan çox olmuşdur. Bütün bunlar böyük uğurumuz, tarixi nailiyyətimizdir.

Bu gün respublika Prezidenti cənab İlham Əliyevin apardığı dayanıqlı və uğurlu siyasət nəticəsində bölgələrlə bərabər Bakıətrafı qəsəbələrin sosial-iqtisadi cəhətdən sürətli inkişafını müşavirə iştirakçılarının diqqətinə çatdıran **Xəzər Rayon İcra Hakimiyyətinin başçısı Gülağa İslamov** qeyd etmişdir ki, həmişə olduğu kimi Abşeronun cənnət guşəsi olan Xəzər rayonunda da ötən dövr ərzində yenidənqurma işlərinə xüsusi diqqət göstərilmişdir. Rayonun sosial-iqtisadi həyatında baş verən dəyişikliklər bütün sahələrdə yüksəlişlə müşahidə olunmuşdur. Belə ki, rayon üzrə sənaye məhsulu istehsalı 159 milyon 828 min manat, onun dövlət sektorunda xüsusi çəkisi 98,1 faiz olmuşdur.

Nəqliyyat sektorunda 1 milyard 85 milyon 490 min manatlıq xidmətlər göstərilmişdir. Bu, ötən ilin eyni dövrü ilə müqayisədə 44,8 faiz çoxdur. Rabitə müəssisəsi tərəfindən idarə, müəssisə və təşkilatlara, əhaliyə faktiki qiymətlərlə 4 milyon 244 min manatlıq xidmət göstərilmişdir.

Rayonun tikinti kompleksində iqtisadi və sosial sahələrin inkişafı üçün bütün maliyyə mənbələri hesabına 292 milyon 720 min manat investisiya cəlb edilmişdir. Bu, ötən ilin müvafiq dövrünə nisbətən 5,6 dəfə çoxdur. İstifadə edilmiş investisiyaların 10 milyon 269 min manatı tikinti-quraşdırma işlərinin yerinə yetirilməsinə sərf olunmuş və keçən ilin müvafiq dövrünə nisbətən 21,9 faiz təşkil etmişdir. İstehlak və xidmət bazarlarında əhaliyə 572 milyon 174 min manatlıq istehlak malları satılmış, pullu xidmətlər göstərilmişdir. Ticarət şəbəkəsindən satılmış məhsulların 17 faizi hüquqi şəxs kimi fəaliyyət göstərən ticarət təşkilatları, 83 faizi isə hüquqi şəxs yaratmadan fiziki şəxslər tərəfindən realizə olunmuşdur.

Rayonun iqtisadi-sosial sahələrində işləyənlərin orta aylıq əmək haqqı 461 manat, tikinti sektorunda çalışanların orta aylıq əmək haqqı 239 manat, sənaye sahəsində çalışanların orta ayldıq əmək haqqı 641 manat təşkil etmişdir.

Ötən dövr ərzində rayonda 2378 yeni iş yeri açılmışdır. Bunun 7-si yeni yaradılmış təşkilatlar, 537-si mövcud müəssisə və təşkilatlar, 1894-ü fiziki şəxslər tərəfindən açılmışdır. Ümumiyyətlə, son 14 il ərzində rayon ərazisində 23 min 387 yeni iş yeri açılmışdır.

Dövlət Sosial Müdafiə Fondunun rayon şöbəsində 2017-ci ilin 9 ayı ərzində 1234 nəfər fərdi sahikarlıq fəaliyyəti ilə məşğul olan sığortaedən qeydiyyatdan keçmişdir.

Bu gün pensiya təyinatı sektoru üzrə 17415 əmək pensiyaçısına 39 milyon 645 min manat pensiya ödənilir. Rayonda 2102 nəfər 316 min 393 manat ünvanlı dövlət sosial yardımı alır.

2017-ci il 16 mart tarixdə Sahibkarlığa Kömək Milli Fondu Xəzər RİH-nin təşkilatçılığı ilə Mərdəkan qəsəbəsində sahibkarlarla növbəti görüş keçirmişdir. Sahibkarlara Fond tərəfindən istixana kompleksinin tikintisi üçün 3 milyon 200 min manat güzəştli kredit vermiş, buna görə 102 yeni iş yerinin açılması nəzərdə tutulmuşdur. Ümumiyyətlə, bu ilin 9 ayı ərzində 9 sahibkarlıq subyektinə 11 milyon 705 min manat güzəştli kredit verilmiş, 28 yeni iş yeri açılmışdır.

Əhalinin məşğulluğunu təmin etmək məqsədilə dövlət başçısı cənab İlham Əliyevin tapşırığına əsasən rayonda 327 iş yeri ayrılmış, rayon ərazisində yaşayan, işsiz, aztəminatlı ailələrin üzvlərindən ibarət 327 nəfər işə qəbul edilmişdir. Bütün qəsəbələri əhatə edən işçi qrupu rayon ərazisinin müxtəlif sahələrində təmizlik işləri aparır, vaxtlı-vaxtında əməkhaqlarını alırlar.

Rayon Mənzil Kommunal Təsərrüfatı Birliyi ilin 9 ayında müntəzəm olaraq qəsəbələrin ərazilərində məişət tullantılarının və digər bərk tullantıların daşınmasını təşkil etmişlər. Birliyin su maşınları ilə xidməti ərazilər, məcburi köçkünlər, idarə və təşkilatlar 23 min 822 ton içməli su ilə təmin edilmişdir.

Mərdəkan, Şüvəlan, Binə, Buzovna qəsəbələrində, Albalılıq yaşayış massivində yerləşən çoxmərtəbəli binalarda 135 mənzilin tüstü və havaçəkmə kanalları "Təmiz Baca" MMC, 600 mənzilin tüstü bacaları isə MKİS tərəfindən təmizlənmişdir. Buzovna qəsəbəsi 136 saylı MKİS-nin xidməti ərazisində yerləşən 5 ədəd 9 mərtəbəli yaşayış binalarının lift təsərrüfatında təmir işləri aparılmış, birliyin balansında olan yaşayış binalarının dam örtüyü təmir edilmiş, Binə qəsəbəsi R.Məmmədhüseynov küçəsi 2 saylı 5 mərtəbəli binanın dam örtüyü, Şimal DRES yaşayış massivi 4 saylı binanın dam, su navalçaları təmir edilmişdir.

S.Yesenin küçəsində 952, Şüvəlan qəsəbəsinin "Mayak" ərazisində 2984, Almas İldırım küçəsində 690 kvadratmetr asfalt örtüyü salınmışdır. 1 saylı xüsusi təyinatlı MKTB-nin 111 saylı MKİS-nin xidmət ərazisində, 3 saylı Xüsusi Təyinatlı MKTB-nin 112 saylı MKİS-nin xidmət ərazisində, eyni zamanda 3 saylı Xüsusi Təyinatlı MKTB-nin 155 saylı MKİS-nin xidmət ərazilərində müxtəlif sahələr üzrə təmir, rəngləmə işləri aparılmışdır.

Rayonun Sukanal İdarəsi 9 ay ərzində 10 min metr, 18 poqonmetr müxtəlif diametrli su xətti çəkmiş, 70 poqonmetr köhnəlmiş su borularını dəyişdirmişdir. Bundan əlavə, rayon ərazisində olan 75 ədəd içməli su bulağı daimi su ilə təmin olunur və nəzarətdə saxlanılaraq mütəmadi təmir edilir. Ötən dövr ərzində "Azərsu" ASC tərəfindən tədbirlər planına uyğun olaraq Binə, Şağan, Mərdəkan, Şüvəlan, Zirə, Türkan, Qala qəsəbəsində ümumilikdə 11451 poqonmetr müxtəlif diametrli su xətti çəkilmişdir.

Bakı Regional Qaz İstismar Sahəsinin Xəzər rayonu üzrə Texniki İstismar Xidmətinin ərazilərində itkilərin azaldılması və qaz təchizatının yaxşılaşdırılması üçün nəzərdə tutulan tədbirlər planına əsasən Türkan qəsəbəsinin Üzümçülük sovxozu ərazisindəki Bağlar massivinə yeni qaz xətti çəkilmişdir. Şüvəlan qəsəbəsində 35 poqonmetr yenisi ilə, Binə qəsəbəsində isə qaz xətti əsaslı təmir olunmuş, Hövsan Südçülük sovxozu ərazisində uzunluğu 90 poqonmetr qaz xətti çəkilmiş, Türkan, Binə, Qala, Şağan, Mərdəkan, Şüvəlan qəsəbələrində 175 ədəd qaztəmizləyici şkaflarda tənzimləmə işləri aparılmışdır.

Rayonun Enerji Təchizatı və Satışı İdarəsi tərəfindən görülən işlər nəticəsində bu gün demək olar ki, əhali dayanıqlı elektrik enerjisi ilə tam təmin olunmuşdur.

Xəzər Telefon Qovşağında görülən işlər nəticəsində qovşağın montaj tutumlu 70799 nömrə, istifadə olunan abunəçi tutumu isə 58710 nömrə təşkil etmişdir. Ötən ilin müvafiq dövrü ilə müqayisədə poçt ödənişi nişanı üzrə 13972 manat, telefon haqlarının yığımı 3270 manat, elektrik enerjisi haqlarının yığımı 4938, qaz pullu yığımı 3298, su pulu yığımı 1278 manat, pul köçürmələri 24314, bank xidmətlərindən 2843 manat gəlir əldə edilmişdir.

Onu da qeyd etmək lazımdır ki, "Azərpoçt" MMC-nin 4 saylı poçt filialı bu ilin 9 ayı ərzində verilmiş 811640 manat tarif gəliri proqnozunu faktiki 900505 manat olmaqla 110,9 faiz icra etmişdir.

Rayonun ərazisində mütəmadi olaraq tikinti və quruculuq işləri aparılmış, küçə və meydanlar, parklar, ayrı-ayrı ictimai binalar, əsas yollar, daxili küçələr yenidən qurulmuş, su və kanalizasiya sistemləri, elektrik xətləri yeniləşdirilmiş, yeni xidmət və istehsal müəssisələri, bir sıra sosial-mədəni obyektlər tikilib əhalinin istifadəsinə verilmişdir.

Rayon icra hakimiyyətinin daxili imkanları hesabına Mərdəkan, Şüvəlan, Binə, Türkan qəsəbələrində səkilər, hasarlar yenidən qurulmuş, yol boyu milli elementlər nəzərə alınmaqla mövcud tikililərdə bərpa işləri görülmüşdür. Bugünün ən vacib məsələlərindən biri də yaşıllıqların salınması və onlara qulluq edilməsinin təşkilidir, - deyən **rayon icra hakimiyyətinin başçısı Gülağa İslamov** hesabat iclasında bildirmişdir ki, 2016-cı ildə rayon ərazisində 99320 ədəd müxtəlif növ ağac əkilmiş, 2017-ci ildə də bir o qədər ağac əkilməsi nəzərdə tutulmuşdur.

Ötən dövr ərzində Mərdəkan qəsəbəsində 1600, Şüvəlanda 1231, Binədə 538, Türkanda 7597, Buzovnada 230, Qala qəsəbəsində 150, Şağanda 600, Zirə qəsəbəsində 5070 ədəd ağac əkilmişdir. Ümumilikdə İH-in, qəsəbə nümayəndəlikləri və bələdiyyələr tərəfindən 17061 ədəd, "İDEA" İctimai Birliyi və ayrı-ayrı idarə, müəssisə və təşkilatlar 25690 ədəd olmaqla 42751 ədəd ağac əkmişlər. Hazırda ağacların suvarılması və onlara aqrotexniki qulluq işləri aparılmaqdadır.

Rayon ərazisində asfalt yolların çəkilişi, əsaslı təmiri istiqamətində də müəyyən işlər görülmüşdür. Belə ki, ölkə Prezidenti cənab İlham Əliyevin tapşırığına əsasən Zirə və Türkan qəsəbələrini birləşdirən 7,2 kilometr uzunluğunda, 7 metr enində yolun birinci qatının asfaltlaşdırılması başa çatdırılmışdır.

Bakı Şəhər İcra Hakimiyyəti tərəfindən rayonun Mərdəkan, Şüvəlan qəsəbələrinin daxili küçələrinə 12472 kvadratmetr asfalt salınmış, 345 poqonmetr bordür düzülmüşdür. Eyni zamanda rayon İH-in imkanları hesabına rayonun Şağan, Buzovna, Binə, Şüvəlan, Türkan, Zirə, Mərdəkan qəsəbələrində daxili yollara, müəyyən sahələrə asfalt örtüyü salınmış, Qala, Türkan, Binə, Buzovna qəsəbələrində isə 18 kilometr yol cari təmir olunmuşdur.

Respublika Prezidentinin müvafiq sərəncamı ilə Şağan Mədəniyyət Mərkəzi üçün Mədəniyyət və Turizm Nazirliyinə vəsait ayrılmış, hazırda orada tamamlanma işləri görülür.

O da qeyd olunmuşdur ki, ötən 9 ayda rayon ərazisində dövlət bayramları və ictimai-siyasi əhəmiyyət kəsb edən digər tarixi hadisələrlə bağlı ictimaiyyətin iştirakı ilə bir çox kütləvi tədbirlər keçirilmişdir.

Belə ki, 20 Yanvar, 26 fevral - Xocalı soyqırımı, 8 Mart - Beynəlxalq Qadınlar Günü, 17 mart Heydər Əliyev Fondu tərəfindən 4000 aztəminatlı ailəyə, şəhid ailələrinə, Qarabağ əlillərinə və eyni zamanda 4000 nəfər ünvanlı sosial yardım alan şəxslərə Novruz bayramı münasibətilə ərzaq paylanması, 31 Mart - Azərbaycanlıların Soyqırımı ilə bağlı anım mərasimi, may ayında ulu öndər Heydər Əliyevin anadan olmasının 94-cü ildönümü, 9 May - Qələbə günü, 28 may - Respublika günü, 15 iyun - Milli Qurtuluş günü münasibətilə, 23 iyun - Dövlət Qulluqçularının peşə bayramı, 12 avqust - Beynəlxalq Gənclər günü, 15 sentyabr - Bilik günü ilə əlaqədar RİH başçısı yanında şura iclası keçirilmiş, 2017-2018-ci tədris ilinə hazırlığın nəticələri haqqında qərar Bakı Şəhər Təhsil İdarəsinə və təhsil müəssisələrinə göndərilmişdir.

Respublika Prezidenti cənab İlham Əliyevin tapşırığına əsasən rayon əhalisinin tibbi müayinədən keçməsi ilə əlaqədar olaraq 15 fevral - 15 may 2017-ci il tarixində 108119 nəfər tibbi müayinədən keçmişdir.

Rayon rəhbərliyinin təşəbbüsü ilə 01 iyun - 22 iyun da "Səyyar Asan xidmət" avtobusu Türkan və Zirə qəsəbələrində, 12-26 sentyabrda Binə qəsəbəsində olmuş və 2500-ə yaxın sakin xidmətdən yararlanmışdır.

2017-ci ilin 9 ayı ərzində dövlət başçısı cənab İlham Əliyev bir neçə dəfə Xəzər rayonunda olmuşdur. Belə ki, 13 yanvarda və 24 avqustda Türkan qəsəbəsində yerləşən Dövlət Sərhəd Xidməti Sahil Mühafizəsinin Gəmi İnşası və Təmiri Zavoduna gəlmiş, orada inşası başa çatan "Tufan" gəmisi və yeni xüsusi texnikalar ilə tanış olmuşdur. 8 sentyabr 2017-ci il tarixdə Buzovna qəsəbəsinə gəlmiş, orada inşa olunmuş "Təhsil Respublika İdman Mərkəzi"nin Zaqulba Tədris İdman Bazasının açılışında iştirak etmişdir.

9 ayda ən önəmli hadisələrdən biri də Xəzər rayonundan millət vəkili seçilmiş Mehriban xanım Əliyevanın Prezidentin 21 fevral 2017-ci il tarixli sərəncamı ilə Birinci vitse-prezidenti təyin edilməsi olmuşdur. Mehriban xanım Əliyeva Birinci vitse-prezident kimi 2017-ci il mayın 1-də Türkan qəsəbəsindəki 6 saylı nitqi qüsurlu uşaqlar üçün internat evinə ilk səfərini etmiş, orada rayon rəhbərliyi və bir qrup sakinlə görüşərək gələcək planlar barədə danışmışdır.

İlin 9 ayı ərzində rayon İH aparatına daxil olan ərizə, şikayət və müraciətlərin sayı ötən ilin müvafiq dövrünə nisbətən 22 faiz azalmışdır. Uzun illərin təcrübəsi göstərir ki, rayon rəhbəri vətəndaşlarla nə qədər tez-tez görüşlər keçirərsə, ərizə və şikayətlərin sayı da azalar. Bu baxımdan RİHB tərəfindən qəsəbələrdə 18 səyyar qəbul keçirilmiş, bu görüşlərdə 2035 nəfər vətəndaş iştirak etmiş və 60 müraciət səsləndirilmişdir. Müraciətlərdə əsasən asfalt örtüyün salınması, təbii qaz, su-kanalizasiya və nəqliyyat problemləri üstünlük təşkil etmişdir. Səyyar qəbullarda səsləndirilmiş müraciətlərin əksəriyyəti müsbət həll olunmuş, digər məsələlər isə məktublarla aidiyyəti qurumlara göndərilmişdir.

Respublika Prezidenti cənab İlham Əliyevin 2017-ci il 9 oktyabrda keçirdiyi müşavirədə yerli icra hakimiyyətlərinə verdiyi tapşırıqlardan biri də yerli və xarici sərmayədarların işə cəlb edilməsi, ərazi istehsal müəssisələrinin, sahibkarlıq subyektlərinin yaradılması, eləcə də yeni iş yerlərinin açılması ilə bağlı olmuşdur. Bu məqsədlə RİH-in müvafiq şöbələrinə, qəsəbə nümayəndəliklərinin rəhbərlərinə və bələdiyyə sədrlərinə yerli və xarici sərmayədarların rayona cəlb edilməsi istiqamətində daha səmərəli fəaliyyət göstərmələri, aidiyyəti idarə, müəssisə və təşkilat rəhbərlərinə isə onlar üçün münbit şəraitin yaradılması məqsədilə müvafiq işlərin görülməsi tapşırılmış və bu işlər ciddi nəzarətə götürülmüşdür. Əminliklə demək olar ki, əhalinin firavan yaşamasına yönələn respublika Prezidentinin fərman, sərəncam və tapşırıqlarının icrası üçün bütün imkanları səfərbər edərək qarşıya qoyulan vəzifələrin öhdəsindən layiqincə gələcəyik.





**Kamal İBADOV,**
**"Respublika".**









